Bir nəsln hekayəti

Kərbəlayı Əli Zülalov Şuşanın tanınmış, hörmətli kişilərindən olub. Ömrünü-gününü balalarının firavan yaşamasına həsr edən atanın o zaman bəlkə də heç ağlına gəlməyib ki, ocağından pərvazlanan övladlarının, nəvə-nəticələrinin fəaliyyəti sayəsində bu nəsil Azərbaycanda çox məşhurlaşacaq, ailə üzvlərinin şöhrəti ölkəmizin hüdudlarından da kənara çıxacaq. Kərbəlayı Əli yüksək zövqə və dərin biliyə malik, yumşaq təbiətli, xeyirxah insan kimi nəinki şuşalılar arasında, küllü Qarabağda ad-san qazanmışdı. Xüsusilə də islam dininin bütün məziyyətlərinə bələd idi. Yaxın Şərqə səyahətə çıxmış, Kərbəla ziyarətində olmuşdu. Böyük övladının musiqi duyumunu, səsini də əvvəlcə ata özü hiss etmişdi. Bir dəfə diqqətini çəkmişdi ki, oğlu oxuyanda bağçada cəh-cəh vuran quşlar səslərini necə kəsərək onu dinləyirlər. Bu, Azərbaycanın ilk Bülbülü olacaq Əbdülbaqi idi.

Bülbülcan

XIX əsrin sonlarında Tiflisdə böyük bir konsert oldu. Məşhur tarzən Mirzə Sadığın (Sadıqcan) müşayiəti ilə Əbdülbaqi Kərbəlayı Əli oğlu Zülalov qeyri-adi ifası ilə tamaşaçı rağbəti qazandı. Onun adı nəinki Tiflisdə, Gürcüstanda, eləcə də Cənubi Qafqazda məşhurlaşdı. Şuşadan Tiflisə köçmüş Əbdülbaqi qısa müddət ərzində gürcü dilini də öyrənərək pərəstişkarlarına bu xalqın da mahnılarını təqdim edirdi. Əbdülbaqi elə bir şöhrət qazanmışdı ki, onu küllü Qarabağda öz adı ilə yox, məhz "Bülbülcan" kimi tanıyırdılar. Əvvəlcə "Bülbül" adlandırmışdılar. Sonrakı fəaliyyətində muğam və xalq mahnılarımızı elə bənzərsiz və ustalıqla oxudu ki, "can" kəlməsi bir təxəllüs kimi ünvanına qanadlandı.

Əbdülbaqi Kərbəlayı Əli oğlu Zülalov 1841-ci ildə Şuşa şəhərində doğulmuşdu. Bir sənətkar kimi yetişməsində bu qədim şəhərin musiqi həyatı böyük rol oynadı. Hələ uşaqlıqdan əlini qulağının dibinə verərək səsi ilə ətrafa qəribə bir məlahətli avaz yayardı. Təbii ki, Şuşada səsə, sənətə qiymət verən sərraflar çox idi. Elə ilk musiqi təhsilini də Xarrat Qulunun məktəbində alan Əbdülbaqi sonralar tarzən Mirzə Sadıqla birlikdə Qarabağ, Şəki, Şirvan və Gəncənin el məclislərində, şənliklərdə iştirak etməyə başladı. Həm gözəl boy-buxuna, həm də qeyri-adi səsə malik olan Əbdülbaqini Şuşada hamı sevirdi. Xüsusilə də Xurşudbanunun təşkil etdiyi şənliklərdə Əbdülbaqi yaxından iştirak edərdi. Sesi-sorağı Təbrizdən, İrəvandan, Şamaxıdan gələrdi.

1871-ci ilin qışında Əbdülbaqi Tiflis şəhərinə köçdü. O zaman Cənubi Qafqazın mədəniyyət mərkəzi sayılan Tiflisdə adətən məclislər, xeyriyyə konsertləri tez-tez keçirilərdi. Hətta Avropa musiqiçiləri də bu şəhərə gələrdilər. Əbdülbaqi dəfələrlə Rusya, İtaliya müğənniləri və musiqiçiləri ilə bir yerdə çıxış etmişdi. Tiflisdə yaşadığı 30 il ərzində bir neçə musiqi dəstəsi yaratmışdı. XIX əsrdə sazəndə qrupları üç və ya dörd nəfərdən ibarət olardı. Lakin Bülbülcanın təşkil etdiyi bu yeni ansamblda altı nəfər var idi. O, muğam üçlüyünə əlavələr etmişdi. Böyük müğənninin sazəndələr dəstəsində tar, kamançə, yastıbalaban, dəf, qoşanağara birləşmişdi. Əbdülbaqi öz musiqiçiləri ilə birlikdə teatr tamaşalarında da iştirak edərdi. Fasilə zamanı onun sazəndələr dəstəsi gözəl musiqilər çalar, Bülbülcan da tamaşaçıları öz qeyri-adi səsi ilə feyziyab edərdi. Bu barədə o dövrün qəzetlərində də yazardılar. Tamaşalarda iştirak edən avropalılar da Şərqin bu qısa, lakin maraqlı konsert proqramından heyrət və məhəbbətlə söz açaraq bəyənmələrini bildirərdilər. Bülbülcan da sənət dostu Sadıqcan kimi 1900-cü ilin mayında İran hakimi Müzəffərəddin şah tərəfindən xanəndəlik hünərinə görə - "Şiri-Xurşid" ordeni ilə təltif edilmişdi.

Şuşalı xanəndənin repertuarı çox zəngin idi. Musiqi tədqiqatçısı Firidun Şuşinski yazırdı: "O, təkcə Azərbaycan dilində deyil, gürcü, erməni, kumık və fars dillərində də oxuyardı. Onu erməni, gürcü və hətta rus məclislərinə dəvət edərdilər". O, bütün tamaşaçıların üreyinə yol tapırdı. İfaçılıq məharəti ilə dinləyicilərin hamısını valeh edərdi. Hətta ele zəngulələr vurardı ki, hamı yerinə dönüb qalardı. Ümumiyyətlə, xanəndəlik sənətində zəngulə vurmaq əsas amillərdən sayılır. Elə bir muğamımız yoxdur ki, orada zəngulə olmasın. Unudulmaz Cabbar Qaryağdıoğlu "Keçmiş Azərbaycan musiqisi haqqında xatirələrim"də yazırdı ki, mən zəngulə vurmağı ilk dəfə Əbdülbaqidən öyrənmişəm. Onun sənətinin böyüklüyü də elə bu qeyri-adi zəngulələrində idi. Açığı, onun kimi heç kim zəngulə vura bilməzdi. Elə buna görə də Bülbülcanın muğamları çox fərqli və təsirli alınardı.

Sonralar Bakıya köçən Bülbülcan məşhur tarzən Qurban Pirimovla birlikdə çalışmağa başladı. Onlar Azərbaycan artistlərinin təşviqat briqadalarının tərkibində respublikanın rayonlarına gedər, xalq qarşısında konsertlər verərdilər. Bülbülcanın səsi Üzeyir bəyi də məftun etmişdi. Bu səbəbdən də dahi bəstəkar 1923-cü ildə onu Azərbaycan Dövlət Türk Musiqi Məktəbinə dəvət edib. Baxmayaraq ki, Bülbülcan artıq yaşlaşmışdı, amma içindəki həvəs, yaradıcılıq eşqi ona kömək edirdi. Bir müddət də o, bu məktəbdə muğamatdan dərs edərdi, gələcək xanəndələrin yetişməsində əməyini esirgəmədi. Ustad xanəndələrin formalaşmasında böyük əməyi olan Əbdülbaqinin musiqiçilər arasında dərin hörməti vardı. Hətta Üzeyir Hacıbəyli də məşhur musiqiçilər haqqında danışarkən Bülbülcanın adını xüsusi ehtiramla çokmişdi. Xanəndə Bülbülcanla tarzən Sadıqcanın Qafqazın hər yerində məşhur olduqlarını fəxrlə dilə gətirmişdi.

Bülbülcandan dərs alan və onun sənətini sevən istedadlı gənclər sonralar Azərbaycan mədəniyyətinin məşhur simaları oldular: Cabbar Qaryağdıoğlu, Musa Şuşinski, Məşədi Məmməd Fərzəliyev, Şəkili Ələsgər, Vahab bəy, Molla Abbas, Seyid Şuşinski və onlarca başqaları.

Bülbülcan

Əzizə Əbdülbaqi qızı

Sona Hacıyeva

Əli Zülalov

Bülbülcanın ailəsi Azərbaycan incəsənət tarixində əhəmiyyətli rol oynayıb. Təsadüfi deyil ki, bu ocaq "istedadlılar ailəsi" kimi tanınıb. Əbdülbaqinin qızı, nəvəsi və qardaşı uşaqları Azərbaycan musiqi mədəniyyətinin, teatrının ilkinləri sırasında dayandılar. Onlar öz istedadları ilə Bülbülcanın nəcib ənənələrini layiqincə davam etdirdilər.

Səhnəmizin ilk peşəkar aktrisası

Bu, **Əzizə xanımdır.** Bülbülcan Tiflisdə yaşayarkən 1892-ci ildə bu ailədə dünyaya gələn Əzizə Əbdülbaqi qızı uşaqlıqdan musiqiyə, sənətə bağlı olub. İlk təhsilini atasından alıb. Hətta qarmon çalmağı da öyrənmişdi. Çox ərkən ailə həyatı qurub. Çox az müddət Şəkidə yaşayıb. Məmmədova familiyası da həyat yoldaşının soyadından gəlir. Təəssüf ki, ailə səadəti uzun sürməyib. Həyat yoldaşının vaxtsız vəfatından sonra balalarını da götürərək atası evinə qayıdıb. 1919-cu ildən Bakıda yaşayıb. Elə o vaxtdan da Bülbülcanın iştirak etdiyi məclislərə, tədbirlərə, konsertlərə, teatra gedərdi. İncəsənətə olan böyük marağı onu Əbdilov, sonra da Əli Bayramov adına qadın klublarına gətirdi. O, səhnə fəaliyyətinə də elə bu klubun dram kollektivlərində başladı. Qızı Sona ilə birlikdə səhnəyə çıxaraq "Axşam səbri xeyir olar" tamaşasında Gülcamal və Çimnaz rolunda çıxış etmişdi. Cəmi bir ildən sonra Əzizə xanımın sorağı Tənqid Təbliğ Teatrından gəldi. Bakı Türk İşçi Teatrında, Azərbaycan Dövlət Dram Teatrında iştirak etdiyi tamaşalarda müxtəlif səciyyəli, xarakterli səhnə obrazları yaratdı. Mütəxəssislərin fikrinca, Əzizə Məmmədova milli kaloritli Azərbaycan qadın rollarının ən yaxşı ifaçısı sayılırdı. Əzizə Məmmədova həm də ilk azərbaycanlı kinoaktrisalardan biri idi. O, "Azərbaycanfilm" kinostudiyasının yaradıcılıq işlərində yaxından iştirak edərdi. "Hacı Qara", "İsmət", "Almaz", "Yeni horizont", "Görüş", "Səhər" filmlərə çəkilmişdi. Bələliklə, həyatını teatr və kino sənətinə bağlayan Əzizə xanım bir-birindən maraqlı, yaddaqalan obrazlar galereyası yaratdı. O, 1938-ci ildə əməkdar artist fəxri adına layiq görülmüşdü. "Qırmızı Əmək Bayrağı" ordeni və s. medallarla təltif olunmuşdu.

Anadan balaya ötən estafet

Teatr aləmine ilk dəfə qədəm qoyanlardan biri də Əzizə xanımın qızı **Sona Hacıyevadır.** Bu anabala elə bir zamanda cəsarətli addım atdılar ki, məhz onların gelişi ilə milli teatr səhnəsinda Azərbaycan qadınının nəfəsi duyuldu. Onlar elə bir zamanda səhnə fəaliyyətinə başladılar ki, bu sonalə nəinki qadınların, hətta kişilərin belə gelməsi xoş olmayan münasibətlə qarşılanır, ağır hadisələrlə nəticələnirdi. Mədəniyyət aləminin unudulmaz simalarından sayılan Sona Hacıyeva milli səhnəmizin ən parlaq ulduzlarından biri olub. O, qorxulu və çətin zamanda teatra öz tutaraq xalqının savadlanması və maarifənməsi üçün heç nedən çekinmedi.

Sona Hacıyeva 1907-ci ildə Şəkidə anadan olub. Atasının vəfatından sonra onu və qardaşını babası Bülbülcan saxlamalı olub. Anası Əzizə Məmmədovanın teatra bağlılığı qızına da sirayət edib. Yuxarıda deyildiyi kimi, ana-bala səhnəyə eyni ilde, eyni tamaşada gelibler. Bu barede Sona Hacıyeva öz xatirələrinde yazırdı: "Bir gün anam mene dedi ki, bu axşam tamaşamız var. Gel seni ora aparım, oturub tamaşa edersen. Men çox sevindim. Yadımdadır ki, klubda bir kişi mene yaxınlaşıb dedi: "Qızım, sen bize lazımsan. Bu gün Çimnaz olacaqsan". Onun sözlərindən təəccübləndib dedim ki, menim adım Çimnaz deyil, Sonadır, özüm de Əzizə xanımın qızıyam". Balaca Sona bir de görüb ki, ona paltar geyindirilər. Sonra da tapşırılar ki, çıxarsan sehnəye, sufloryar ne desələr, tekrar edersen. Balaca qız bu sözləri təəccüblə qarşılasa da, anasının sehnede xanımın hem operada, hem de Dram Teatrının sehnelerinde müntəzəm çıxışı qeyri-adi bir mücüze idi. Çünki bir-birinin ardınca müxtelif sepkili, müxtelif xarakterli obrazlar yaradan Sona Hacıyeva sənət boyalarından ele ustalıqla istifade edirdi ki, bütün çıxışları tebii ve tesirli alınırdı. Azərbaycan sehnesine Sona Hacıyeva adi bir aktrisa kimi gelmemişdi. O, hem de müxtelif qadağalara, maneelere, tezyiq ve teqiblere meruz qalmış Azərbaycan qadınının bağrından püskürən bir üsyana dönmüşdü. Cehalet ve nadanlıqla dolu alemin illasla neticeleneceyini öz yaradıcılığı, oynadığı rolların monologları ile dile getirirdi. Onun yaratdığı obrazlar Azərbaycan qadınının ağır taleyini, düşdüyü azablardan güclü ve emosional şekilde tamaşaçıla çatdırırdı.

Sona xanımı sehnede görenler yazırlar ki, o, öz rollarını o qedər ürekden sever, onlara qelben bağlanarmış ki, sehnede heyecanını, rağbetini gizlede bilmirmiş.

Mürekkeb bir zamanda sehnəyə gelen, 200-den artıq müxtelif roller yaradan, hem lirik, hem de komik obrazların mahir ifaçısı olan Sona Hacıyeva Azərbaycan kino senetinin de inkişafına öz töhfesini verdi. "Bextlyar", "Sevimli mahnı", "Qızmar Güneş altında", "O olmasın, bu olsun", "Sehər" filmlerine çekilen Sona Hacıyeva milli kinonun tarixinde de misilsiz xidmetlerin sahibidir. Böyük dramaturqumuz Cefer Cabbarlı Sona Hacıyevanın senet alemindeki xidmetlerini yüksek qiymetlendirerek yazırdı: "Azərbaycanlı aktrisalar içerisinde nezeri celb eden qüvvetli simalardan biri de Sona xanımdır. Sehnede keçen günler bu ince, zerif qızı böyüdüb yaradıcı bir senetkara çevirmişdi". Onun emeyi "Şeref nişanı" ordeni ve başqa medallarla teltif edilmişdir.

Şəcərə ağacının digər budaqları

1893-cü ildə Şuşada doğulan **Əli Zülalov** Bülbülcanın qardaşı oğludur. Atasını erken itirdiyinden onu beş yaşından amisi saxlayıb. Bülbülcanla dostluq eden Üzeyir Hacıbəyli Əlinin incəsənətə olan marağını duymuşdu. Onunla söhbət zamanı gəncin gur, xarakterik səsi bəstəkarın diqqətini çəkib. Elə bu səbəbdən də onu birillik sınaq müddətində özünün rəhbarlik etdiyi opera və operetta truppasının xoruna işə götürüb. Beləliklə, Əli Zülalov səhnədə ilk addımlarını Üzeyir və Zülfüqar Hacıbəyli qardaşlarının truppasında atdı. Əhmad Ağdamskidən sonra qadın rollarının ilk ifaçılarından biri də Əli Zülalov olub.

Sonralar təhsilini davam etdirən Əli Zülalov Bakı Musiqi Texnikumunu və Azərbaycan Dövlət Konservatoriyasını bitirdi. O, heyatda da, sənətdə də Üzeyir Hacıbəylidən dərs aldı. 1938-ci ilde Moskvada keçirilen Azərbaycan edebiyyatı ve incesenetı ongünlüyünde nümayiş olunan "Koroğlu" operasındakı Ehsan paşa rolunu yaratdı. İkinci Dünya müharibəsi illərində Əli Zülalov Qurban Pirimovla birlikde delelerle cebhede döyüşçüler qarşısında konsert vermişdi. İstedadlı aktyorun opera sehnesinde yaratdığı rollar: Ehsan paşa ("Koroğlu"), Leylinin atası ve Zeyd ("Leyli ve Mecnun"), Keşiş ("Esli ve Kerem"), Şahveled ("Aşıq Qerib"), Molla Mütellim ("Nergiz"), Süleyman ("Arşın mal alan") ve onlarla diger obrazları maraqla izlenib. Emekdar artist fexri adına layiq görülen Əli Zülalov opera sehnemizin inkişafında xidmeti olan medeniyyet xadimlerindən biri idi.

Onun kiçik qardaşı **Qəmbər Zülalov** da opera artisti idi. Onu Bülbülcan saxlayıb. Müğənni ve sehne fealiyyetine 1917-ci ilde Şuşada başlamışdı. Müxtelif el şenliklerinde, konsertlerde iştirak edermiş. 1928-ci ilden Opera Teatrında işlemiş, eyni zamanda konsertbüronun solisti olmuşdur. Qəmbər Zülalov operanın inkişafında göstərdiyi xidmetlerine görə emekdar artist fexri adına layiq görülmüşdü.

Solmaz xanım ise Əli Zülalovun qızıdır. Bakı Dövlet Universitetinin hüquq fakültesini ferqlenme diplomu ile bitirib. Bir müddet hüquq sahesi üzre çalışdıqdan sonra Moskvada görkemli hüquqşünas-alim Boris Afanasyeviç Qaykinin rehberliyi ile dissertasiya müdafiə ederek hüquq elmleri namizedi elmi derecesini alıb. O, bir müddet Ədliyye Nazirliyinin Hüquq Kadrların Tekmillesdirme Institutunun rektoru olub. Eyni zamanda, Azərbaycan Hüquqşünaslar İttifaqının sedri vezifesinde çalışıb.

Əli Zülalovun ikinci ovladı **Zemfira Zülalova** ise Azərbaycan Dövlet Universitetinin jurnalistika fakültesini (1963) bitirib. Bir müddet Elmler Akademiyasında çalışan Zemfira xanım sonradan aspiranturaya daxil olub. 1975-ci ilde müdafiə ederek felsefe elmleri namizedi adını alıb.

Pedaqoji fealiyyetle meşğul olan Zemfira xanım müxtelif ali mektablerde ders deyib. 70-e qeder elmi meqalenin ve bir neçe monografiyanın müellifidir.

Rüstəm ise Qəmbər Zülalovun oğludur. Ali dereceli kinooperatordur. Əməkdar medeniyyet işçisi Rüstəm Zülalov uzun iller Azərbaycan Dövlet Televiziya ve Radio Verilişleri Komitesinde çalışıb. Yüzlerle irihecmli verilişlerin, televiziya filmlerinin çekilişinde apancı operator kimi iştirak edib. Hazırda "Lider" telekanalında işleyir.

XIX esrin ortalarından başlayaraq Zülalovların Azərbaycan medeniyyetinin inkişafında töhfeleri çiçek açmaqda davam edib.

Flora XƏLİLZADƏ,
"Azərbaycan"